

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 84 (22.995)

5 may 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz rayonuna səfərə gedib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev mayın 4-də Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun və Xaçmaz-Xudat avtomobil yolunun 24 kilometrlik hissəsinin yenidənqurma və bərpalarından sonra açılışını edib.

Dövlətimizin başçısı həmin gün Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının və "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 4 may tarixli Sərəncamı ilə Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının xalçaçıları da vardır.

**Əliyeva Rübabə İbrahim qızı**

**Həmidova Vəfa Adil qızı**

**Hümbətova Həcər Mahmud qızı**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda Bursa Dövlət Simfonik Orkestrinin konserti olmuşdur





Mayın 3-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Türkiyə Respublikasının Bursa Dövlət Simfonik Orkestri ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konsert proqramı ilə çıxış etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Bursa Dövlət Simfonik Orkestrinin konsertində olmuşdur.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli Sərəncamına əsasən ümummilli liderimizin anadan olmasının 95-ci ildönümü muxtar respublikamızda geniş qeyd olunur, silsilə tədbirlər, idman yarışları və konsert proqramları keçirilir. Tədbirlər Planına uyğun olaraq bu gün Türkiyə Respublikasının Bursa Dövlət Simfonik Orkestrinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konserti keçirilir.

Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərərkən əsasını qoyduğu Azərbaycan-Türkiyə əlaqələrini ikinci dəfə ali hakimiyyətə qayıtdıqdan sonra "Bir millətin iki dövləti" səviyyəsinə yüksəltmişdir. Dahi şəxsiyyətin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycan-Türkiyə əlaqələrinə mühüm əhəmiyyət verir, ikitərəfli münasibətlərimiz müxtəlif sahələr üzrə uğurla inkişaf edir. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında iqtisadi-ticarət, elm, təhsil, nəqliyyat, turizm, ordu quruculuğu və mədəniyyət sahələrində səmərəli əməkdaşlıq vardır. Mədəniyyət kollektivlərinin və incəsənət xadimlərinin qarşılıqlı səfərləri, birgə mədəni-kütləvi tədbirlərin və konsertlərin təşkili də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Qardaş Türkiyənin Bursa Dövlət Simfonik Orkestri ilk dəfədir, Naxçıvanda konsert proqramı ilə çıxış edir. Orkestr 1999-cu ildə Bursa şəhərində yaradılmış, 2012-ci ildə Türkiyədə keçirilən müsabiqədə "İlin orkestri" adına layiq görülmüşdür.





Bakı Musiqi Akademiyasının Dirijorluq kafedrasının professoru, Xalq artisti Yalçın Adıgözəlovun və orkestrin rəhbəri Sedat Dağhan Doğunun dirijorluğu ilə keçirilən konsertdə Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Tofiq Quliyevin, Niyazinin, Vasif Adıgözəlovun, türkiyəli bəstəkar Ülvi Camal Erkinin, dünya bəstəkarlarından Jorj Bizenin, Rudcero Leonkavallonun, Antonio Vivaldinin, Cakomo Puççininin əsərləri, eləcə də Sevil Əliyevanın "Ana" mahnısı məharətlə ifa olunmuşdur. Azərbaycan Respublikasının Xalq artisti Samir Cəfərovun, Azərbaycan Respublikasının Əməkdar artisti Eytiram Hüseynovun, İzmir Opera Teatrının solisti Levent Gündüzün, müğənnilərdən Elton Hüseynəliyevin və Gülay Zeynallının çıxışları alqışlarla qarşılanmışdır.

Bursa Dövlət Simfonik Orkestrinin konserti "Xalq Heydər söyləyəcək" və "Qarabağ şikəstəsi"nin ifası ilə sona çatmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək Bursa Dövlət Simfonik Orkestrinin üzvləri ilə görüşmüş, onları uğurlu konsert proqramına görə təbrik edərək demişdir: Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan sizin ikinci vətəninizdir. Böyük Atatürk deyirdi ki, ***"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"***. Ümummilli liderimiz Heydər Əliyev isə deyirdi ki, ***"Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir"***. Bugünkü konsert dahi rəhbərlərimizin fikirlərinin nümayişinə çevrildi. Sevincli gündə bir yerdə olduq, bir millətin, iki dövlətin orkestri gözəl konsert proqramı ilə çıxış etdi.

Ali Məclisin Sədri demişdir: Qısa müddətdir, yaranmasına baxmayaraq, Bursa Dövlət Simfonik Orkestri təqdim etdiyi konsert proqramı ilə dünya səviyyəli orkestr olduğunu göstərdi. Orkestrin bugünkü çıxışı, sadəcə, bir konsert proqramı deyil. Bu, xalqın mədəniyyətinin göstəricisidir. Bütün bunlar ölkələrimizin inkişafının nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycanda və Türkiyədə sənaye və kənd təsərrüfatı ilə yanaşı, mədəniyyət də inkişaf edir. Çünki mədəniyyətin inkişafı olmadan ölkənin ümumi inkişafını təmin etmək mümkün deyil.

Ali Məclisin Sədri konsertin təşkilatçılarına təşəkkürünü bildirmiş, Bursa Dövlət Simfonik Orkestrini yenidən Naxçıvana konsertə dəvət etmişdir.

Bursa Dövlət Simfonik Orkestrinin üzvü Gökçə Özlər və Bakı Musiqi Akademiyasının Dirijorluq kafedrasının professoru, Xalq artisti Yalçın Adıgözəlov Naxçıvanda olmaqdan və ulu öndərin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konsertin təşkilindən məmnunluqlarını, bundan sonra da muxtar respublikada konsert proqramları ilə çıxış edəcəklərini bildirmiş, fəaliyyətlərinə verilən yüksək qiymətə görə orkestrin heyəti adından minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbirlər keçirilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik strategiyası və varislik" mövzusunda elmi-praktik konfrans keçirib.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov "Ulu öndər Heydər Əliyev, Yeni Azərbaycan Partiyası və varislik" mövzusundakı çıxışında bildirib ki, şəxsiyyətlər tarixi yaradır və bu proses qanunauyğun şəkildə cəmiyyətin sonrakı inkişaf proseslərinə təkan verir. Bu şəxsiyyətlərin içindən elə parlaq dühalar çıxır ki, onların ictimai-siyasi fəaliyyəti və siyasi irsi hələ sağlığında millət və cəmiyyət üçün aktual olur. Yeni Azərbaycan Partiyasının banisi, müstəqil Azərbaycan Respublikasının xilaskarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev də məhz belə dahi şəxsiyyətdir. Onun müəllifliyi ilə partiyanın 6 prinsipi: müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq və vətənçilik, varislik və yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri 1993-cü ildən etibarən, bütövlükdə, dövlətin ideoloji bünövrəsi rolunda çıxış etməyə başlayıb.

Qeyd olunub ki, həmin ildən bəri Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin inkişafını uğurla təmin edən hakim partiyadır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev bu partiyanın üzvü olmağı milli dövlətçiliyə xidmət nümunəsi kimi qiymətləndirərək deyirdi: ***"Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir".***

KonfransdaYeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan", Heydər Əliyev Muzeyinin fond mühafizi Nərmin Cəfərova "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının üzvü, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Nazilə Ləzgiyeva "Naxçıvan Muxtar Respublikası müstəqillik illərində" və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli "Naxçıvanda muxtar dövlət quruculuğu və idarəetmə modeli" mövzularında çıxış ediblər.

Çıxışlarda bildirilib ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi inkişaf xətti hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan güclü iqtisadiyyatı və beynəlxalq nüfuzu ilə artıq dünya dövlətləri sırasında layiqli yerini tutub. Ümummilli liderin ideyaları Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişafa qovuşdurub. Dahi şəxsiyyətin xalqımızın tərəqqisi naminə irəli sürdüyü inkişaf konsepsiyası, irimiqyaslı proqramlar muxtar respublikada da uğurla həyata keçirilir. Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev yolunun alternativi yoxdur. Azərbaycan xalqının hələ neçə-neçə nəsli Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə faydalanacaqdır.

Çıxışlar zamanı mövzularla bağlı slaydlar göstərilib, konfransın sonunda ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətini əks etdirən qısametrajlı film nümayiş etdirilib.

* * *



Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı tərəfindən keçirilən tədbirdə çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə böyük siyasi uzaqgörənliklə ölkəni gələcək müstəqillik üçün hazırlaması 90-cı illərdə müstəqil dövlət quruculuğunda bir baza, zəmin rolunu oynayıb və bu zəmin üzərində müstəqil Azərbaycan dövləti yaradılıb.

Qeyd olunub ki, Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi təhlükəsinin yarandığı, xalqın əsl xilaskara ehtiyacı olduğu bir dövrdə bütün məsuliyyəti öz üzərinə götürən dahi rəhbər Naxçıvandan xilaskarlıq missiyasına başladı, Azərbaycanın qurtuluş və inkişaf tarixini yazdı. Görkəmli dövlət xadimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində olduğu 1991-1993-cü illərdə xalqımız üçün həyati əhəmiyyət daşıyan mühüm tarixi qərarlar qəbul etdi. Ümummilli liderimizin 1993-cü il iyunun 15-də respublikamızda ali hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsini təşkil edir. Ulu öndərin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın yeni və davamlı inkişaf modeli kimi özünü doğrultdu, ölkə həyatının bütün sahələrində dönüş yarandı, hərtərəfli sosial-iqtisadi inkişafın əsası qoyuldu. Azərbaycanda güclü ordu formalaşdı.

İsa Məmmədov vurğulayıb ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi inkişaf xətti hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmiz xarici iqtisadi əlaqələrini daha da genişləndirib, regional layihələrin lider tərəfdaşına çevrilib. Bu gün ümummilli liderin ideyalarının sədaqətlə davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişafa qovuşdurub.

Məruzə ətrafındakı çıxışlardan sonra Yeni Azərbaycan Partiyasına qəbul edilən bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub, şagirdlər ulu öndərə həsr edilmiş şeirləri bədii qiraət ediblər.

Sonda "Ən böyük Azərbaycanlı" sənədli filminə baxış olub.

* * *

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı tərəfindən keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətləri Azərbaycanın ən yeni tarixinin 40 ilə yaxın dövrünü əhatə edir. Milli dövlətçilik tariximizin ən şanlı və parlaq səhifələri ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövrlərində yazılıb. Bu baxımdan Azərbaycanda 1969-1982-ci illərdəki inkişaf və tərəqqi, 1993-2003-cü illərdə müstəqilliyin möhkəmlənməsi naminə göstərilən siyasi iradə və dövlətçilik təcrübəsi, zəngin irsə malik siyasi məktəb və gələcəyə hesablanmış sosial-iqtisadi islahatlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

1993-cü ildə ümummilli liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, xarici investorlar respublikamıza cəlb edilərək iqtisadiyyat dirçəldildi. Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri – xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi daşıyırdı. 1994-cü ilin ikinci yarısından başlayaraq görkəmli dövlət xadimi Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi nəticəsində region üçün böyük iqtisadi və geosiyasi əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı və bundan sonra Azərbaycanda inkişafın yeni mərhələsi başlandı.

Həyata keçirilən tədbirlər nəticəsində hazırda respublikamız regionun lider ölkəsinə çevrilib. Qazanılmış nailiyyətlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir.



Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtimad Məmmədov, təşkilatın Gənclər Birliyinin üzvü, Qıvraq qəsəbə ərazi ilk partiya təşkilatının sədri Yunis Ələkbərov çıxış ediblər.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri verilib. Tədbirin sonunda məktəblilər ulu öndərə həsr olunmuş şeirləri bədii qiraət edib, ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı videomaterial nümayiş olunub.

* * *



Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov geniş məruzə ilə çıxış edib. Qeyd olunub ki, müstəqil Azərbaycanın qurucusu və Yeni Azərbaycan Partiyasının yaradıcısı ümummilli liderimiz Heydər Əliyev ölməz əməlləri ilə bu gün hər bir azərbaycanlının qəlbində əbədi olaraq yaşayır və yaşayacaq.

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü xalqımız tərəfindən, eləcə də Türk dünyasında böyük ruh yüksəkliyi ilə qeyd olunur. Bütün bunlar onu göstərir ki, görkəmli dövlət xadiminin müdrik siyasəti daim yaşayacaq və Azərbaycan dövlətinin tərəqqisinin ən böyük təminatçısı olacaqdır.

Vurğulanıb ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi ölkənin hərtərəfli siyasi-iqtisadi inkişafını təmin edib. Bu inkişaf muxtar respublikamızı da hərtərəfli tərəqqiyə qovuşdurub.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, Sədərək kənd ərazi ilk partiya təşkilatının sədri Ceyhun Əlizadə, Qaraağac kənd ərazi ilk partiya təşkilatının sədri Ayaz Əliyev, Yeni Azərbaycan Partiyasının üzvləri Sevinc Səfərzadə və Əjdər Məmmədhəsənov çıxış edərək ulu öndərimizin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışıblar.

Sonda 21 nəfər gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib. Məktəblilər ümummilli liderə həsr olunan şeirlər səsləndiriblər.

Naxçıvan Dövlət Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən konfransın plenar iclasını giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. O, "Heydər Əliyev və Azərbaycanda təhsil quruculuğu" adlı məruzəsində qeyd edib ki, ulu öndər Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalıb, bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirib. Böyük dövlət xadimi hər bir gəncin fəal vətəndaşlıq mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu dəfələrlə qeyd edib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Heydər Əliyev: siyasi liderlikdən ümummilli liderliyə" adlı məruzəsində vurğulayıb ki, öz millətinin qəlbində və onun çoxəsrlik tarixində müqəddəslik zirvəsinə yüksəlmək səadəti zəmanəmizin ən dahi şəxsiyyətlərindən biri, xalqımızın böyük oğlu Heydər Əliyevə nəsib olub. Bəşər tarixi sübut edib ki, yalnız tək-tək dövlət başçıları öz xalqı qarşısındakı xidmətlərinə görə siyasi liderlikdən ümummilli lider səviyyəsinə yüksəlir. Ümummilli liderin dövlətçilik və siyası fəaliyyətinin 7 dövrə bölündüyünü diqqətə çatdıran akademik bildirib ki, lider olmaq üçün 21 parametrin hamısı məhz dahi şəxsiyyətin xarakterində, dövlətçilik və siyasi fəaliyyətində cəmləşib. Böyük dövlət xadimi Heydər Əliyevin uğrunda mübarizə apardığı, əməli fəaliyyəti ilə əsas konturlarını müəyyən etdiyi milli dövlətçilik təliminin əsasında Azərbaycançılıq məfkurəsi dayanır. Bu mənada, Azərbaycançılıq Heydər Əliyev siyasi kursunun şah damarı, ana xəttidir.

Konfransda AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Heydər Əliyev irsi və müstəqillik dövründə ədəbi dilimizin inkişaf məsələləri", bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Gəmiqaya abidəsinin tədqiqinə dövlət qayğısı" mövzularında məruzələr ediblər.

Konfrans "Heydər Əliyev və Azərbaycan dili", "Heydər Əliyev və ictimai-siyasi həyat", "Heydər Əliyev və Azərbaycan gəncliyi" bölmə iclasları ilə öz işini davam etdirib.

* * *

***Naxçıvan Müəllimlər İnstitutunda "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik" mövzusunda keçirilən lektoriyanı institutun rektoru, AMEA-nın müxbir üzvü Oruc Həsənli açıb.***



Bildirilib ki, xalqımızın ümummilli lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşarlıq qazanmış ulu öndər Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycan tarixinin ən şərəfli səhifələrini yazıb.

Qeyd olunub ki, müstəqil Azərbaycanımızın memarı və qurucusu olan, xalqımızın və dövlətimizin tarixində özünə əbədiyyət abidəsi ucaldan, öz ölkəsi, xalqı üçün tarixi əhəmiyyətli işlər görən ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin hər səhifəsi Azərbaycan tarixinin bir yüksəliş mərhələsini təşkil edir. Dahi rəhbərin ömrünün hər günü xalqa, millətə, dövlətə xidmət etmənin müqayisəedilməz örnəyi olub. Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider, xalq məhəbbətini qazanan şəxsiyyət kimi həkk olunmuş Heydər Əliyev tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran nadir şəxsiyyətlərdən biri, xalqımızın milli iftixarı, güvənc yerimiz, qürur duyduğumuz böyük azərbaycanlı idi.

Diqqətə çatdırılıb ki, ulu öndərin hakimiyyətdə olduğu dövrlər xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Biz bu tarixi unutmayacağıq.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyev müdrikliyi və cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanıb, ölkəmizin taleyində ciddi dönüşlərə imza atmış dahi şəxsiyyət kimi yaddaşlarımızda əbədiləşib. Xalqımız ən ağır məqamlarda ulu öndərin dövlətimizin maraqlarını qoruyacağına, düzgün qərarlar verəcəyinə inanıb. Dahi rəhbərin zəngin həyat və fəaliyyəti, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri bizim üçün örnəkdir. Ulu öndərin təməlini qoyduğu dövlətçilik məktəbi bu gün də yaşayır və yaşayacaq.

Diqqətə çatdırılıb ki, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsində və iqtisadiyyatının güclənməsində əsas amil olan ümummilli liderin siyasi kursu hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Rektor görkəmli dövlət xadimi Heydər Əliyevin gənclərə yüksək etimadından, ulu öndərin ölkəmizdə elm və təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan söz açıb.

**Xəbərlər şöbəsi**



5 may "Xalçaçı günü"dür

# Milli sərvətimiz olan xalçaçılıq sənəti muxtar respublikada da yaşadılır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 25 noyabr tarixli Sərəncamına əsasən hər il mayın 5-i ölkəmizdə "Xalçaçı günü" peşə bayramı kimi qeyd edilir.***

Azərbaycanda toxuculuğun tarixi 5-7 min il bundan əvvələ gedib çıxır. Naxçıvanda duz istehsalına başlanılması, duzun tədavülü və daşınmasında torba və xurcunlardan istifadə toxuculuq sənətinin də qədim tarixindən xəbər verir. Toxuculuğun inkişafı isə xalçaçılıq sənətinin yaranması üçün geniş imkanlar açmışdır. Herodot, Klavdi Elian, Ksenofont və digər qədim dünya tarixçilərinin əsərlərində, "Kitabi-Dədə Qorqud" dastanında, Nizami Gəncəvinin yaradıcılığında Azərbaycan xalçaları haqqında məlumatlar verilmiş, bu dəyərli mədəni irsimiz tərənnüm olunmuşdur. Görkəmli Azərbaycan və dünya rəssamlarının tablolarında da təsvir olunan xalçalarımız bu gün dünyanın məşhur muzeylərinin ən dəyərli eksponatlarındandır.

***"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür"***, – deyən ümummilli liderimiz Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq milli dəyərlərimizin və tarixi-mədəni irsimizin qorunub yaşadılması qayğısına qalmış, bu sahədə məqsədyönlü tədbirlər görülmüşdür. Xalq tətbiqi sənətimiz də o dövrdə yeni inkişaf mərhələsinə qədəm qoymuş, xüsusilə xalçaçılıq sənətinin inkişafına diqqət artırılmışdır. Xalqımızın həyat şəraiti və məişəti ilə sıx bağlı olan xalçaçılıq sənəti ulu öndər Heydər Əliyevin qayğısı nəticəsində müstəqillik illərində daha da inkişaf etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qədim el sənəti olan xalçaçılığın inkişafına xüsusi diqqət yetirir. Təsadüfi deyil ki, Azərbaycan xalçaları YUNESKO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilib. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması da bu sənətə dövlət səviyyəsində göstərilən diqqətin ifadəsidir. Bu gün ölkəmizdə xalçaçılıq sənətinin tarixi-mədəni dəyəri ilə yanaşı, onun iqtisadi əhəmiyyəti də yüksək qiymətləndirilir, şəhər və rayonlarımızda xalça istehsalı emalatxanaları istifadəyə verilir. Bu da yeni iş yerlərinin açılması və xalçaçılıq sənəti ilə bağlı xammal istehsalı sahələrinin inkişafına təkan verir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixli "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı da Naxçıvanda xalçaçılıq sənətinin sənaye üsulu ilə inkişafına öz töhfəsini verəcəkdir.

Azərbaycan xalçaçılıq sənəti tarixində Naxçıvan xalçaçılıq məktəbinin də özünəməxsus yeri və rolu vardır. Zəngin koloriti, təkrarsız naxışları və orijinal kompozisiyaları ilə seçilən Naxçıvan xalçaları Azərbaycan xalça sənətini ənənəvi naxış və elementləri, özünəməxsus rəng çalarları ilə zənginləşdirmişdir. Tarixən Naxçıvanda xalqımızın qədim mədəniyyətini, məşğuliyyətini və həyat tərzini özündə əks etdirən dəyərli xalça nümunələri yaradılmış, bu sənət nəsildən-nəslə ötürülərək yaşadılmışdır. Xüsusilə heyvandarlığın və qoyunçuluğun inkişafı xalçaçılıq sənətinin formalaşmasında mühüm amil olmuşdur. Xalçaçılığın inkişafı isə boyaqxanaların yaranmasını zəruri etmiş, boyaqçılar bu torpaqda bitən gül-çiçəklərdən, ağac qabıqlarından istifadə edərək min illərin yadigarı olan və əlvanlığını itirməyən xalçalarımızın təbii rəngini almışlar.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Xalçaçılıq tətbiqi sənətimizin elə bir sahəsidir ki, burada xalqımızın zəngin mənəvi aləmi, eləcə də həyat fəlsəfəsinə xas olan xüsusiyyətlər öz əksini tapmışdır. Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal edilən iri ölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir".***



Bu gün də muxtar respublikada xalçaçılıq sənətinin inkişafına xüsusi diqqət yetirilir. Muxtar respublikanın Şərur, Şahbuz, Ordubad və Culfa rayonlarında daha geniş yayılan xalça sənəti xalq yaradıcılığı növlərindən biri kimi yaşadılır və təbliğ olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvanda xalçaçılıq sənətinin bərpası və öyrənilməsi istiqamətində sistemli iş aparılır. 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılması, 2010-cu ildə yeni bina ilə təmin olunması və internet saytının yaradılması bu sahədə görülən işlərin davamıdır. Muzeydə Naxçıvan xalçaçılıq məktəbinin 3 mindən artıq ən dəyərli nümunələri mühafizə və nümayiş olunmaqla yanaşı, həm də xalça toxunuşu həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı xalçaçılıq sənətinin qorunmasına və inkişafına hərtərəfli şərait yaratmış, yeni elmi araşdırmaların aparılmasına stimul vermişdir. Bu sahədə görülən işlərin davamı olaraq nəfis tərtibatlı "Naxçıvan xalçaçıları" kitabı və "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalı çap olunmuş, "Naxçıvan xalçaları" sənədli filmi hazırlanmışdır. "Naxçıvan xalçaçıları" kitabında 254 naxçıvanlı toxucu haqqında məlumatlar toplanmışdır. Naxçıvan xalçaçılıq məktəbinin daha dərindən öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Bununla da, qədim el sənətinin hərtərəfli araşdırılması və təbliği üçün geniş imkanlar açılmışdır. Dövlət proqramı Naxçıvan xalçaçılıq məktəbinin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Muxtar respublikada xalçaçılıq sənətinin yaşadılması, gənc xalçatoxuyanların yetişdirilməsi də diqqət mərkəzindədir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kursları açılmış, Naxçıvan Qızlar Liseyində "Tikiş, toxuculuq və xalçaçılıq" dərnəyi fəaliyyətə başlamış, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında, eləcə də Sədərək Xalçatoxuma Müəssisəsində xalça toxunması təşkil olunmuşdur. Həmçinin 2014-cü ildən etibarən Naxçıvan Muxtar Respublikasında "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" sosial layihəsi həyata keçirilir. Layihənin icrası ilə əlaqədar sağlamlıq imkanları məhdud və evdar qadınlarla müqavilələr bağlanılmış, onlara hana, ip və digər lazımi avadanlıq və materiallar verilərək evlərdə xalça toxunuşu təşkil edilmişdir. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda təsviri incəsənət ixtisası üzrə təhsil alan tələbələrə də Naxçıvan xalçaçılıq məktəbinin ənənələri öyrədilir.

Muxtar respublikada xalçaçılıq sənətinin inkişafı sahəsində görülən işlər və yaradılan şərait xalq tətbiqi sənətinin bu növünün daha da zənginləşdirilərək gələcək nəsillərə çatdırılmasına imkan verir.

**"Şərq qapısı"**

## Rus dili və ədəbiyyatı fənni üzrə onuncu ümumrespublika olimpiadasının zona turniri keçirilib



***Artıq onuncu ildir ki, rus dili və ədəbiyyatı fənni üzrə VII-VIII sinif şagirdləri arasında ümumrespublika olimpiadasının Naxçıvan Muxtar Respublikası üzrə zona turniri keçirilir.***

Qeyd edək ki, olimpiadanın təşkilatçıları Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi, "Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı nümayəndəliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasıdır.

Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə təşkil olunan olimpiada başlanmazdan əvvəl şagirdlərin ifasında ədəbi-bədii proqram təqdim edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Mahir Əliyev, məktəbin direktoru Samirə İsmayılova çıxış edərək qonaqları salamlayıb, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıblar.

"Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Valentin Denisov Naxçıvanda olmasından məmnunluğunu bildirib. Diqqətə çatdırıb ki, keçirilən olimpiadalar rus dili və ədəbiyyatının mənimsənilməsi və təbliği baxımından uğurlu nəticələr verməkdədir. Beşinci ildir ki, Naxçıvanda keçirilən olimpiadaya rəhbərlik edən Valentin Denisov Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında rus dilində məktəblərin fəaliyyət göstərməsini sevindirici hal kimi qiymətləndirib. Xüsusilə də gənclərin rus dilini öyrənmələrinin onların gələcək həyatlarında əhəmiyyətli rol oynayacağını vurğulayan nümayəndəliyin rəhbəri onun təbliğində dövlətin göstərdiyi diqqət və qayğının təqdirəlayiq olduğunu deyib. Vurğulayıb ki, Azərbaycan məktəblərində rus dilinin tədris olunması iki ölkə arasında dostluq münasibətlərinin, qarşılıqlı mədəni inkişafın göstəricisidir. Bu gün Naxçıvanda bütün sahələr kimi, təhsil də sürətlə inkişaf edir. Bu inkişafın göstəricilərindən biri də muxtar respublikada mütəmadi olaraq müxtəlif olimpiadaların keçirilməsidir.

Bakıdakı Rusiya Məlumat və Mədəniyyət Mərkəzinin təhsil proqramlarının kordinatoru Alenina Olesya çıxışında belə tədbirlərin Rusiya və Azərbaycanın qarşılıqlı əlaqələrinin inkişafına xidmət etdiyini diqqətə çatdırıb, olimpiada iştirakçılarına uğurlar arzulayıb. Qonaqlar olimpiadanın keçirilməsində göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Şagirdlərə qaydalar haqqında məlumat verildikdən sonra olimpiadanın zona turniri başlayıb. Bilik yarışında 64 şagird iştirak edib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Əhalinin sağlam və keyfiyyətli ət və süd məhsulları ilə təminatında baytarlıq xidmətinin təşkili mühüm əhəmiyyətə malikdir. Ona görə də Naxçıvan Muxtar Respublikasında baytarlıq xidmətinin təşkilinə xüsusi diqqət yetirilir. Dövlət Baytarlıq Xidməti və onun yerli orqanları tərəfindən mütəmadi olaraq yerlərdə maarifləndirici tədbirlər keçirilir, müxtəlif xəstəliklərə qarşı peyvəndləmə işləri aparılır.*

## Muxtar respublikada baytarlıq xidmətinin təşkili diqqətdə saxlanılır

Cari ilin aprel ayında da bu tədbirlər davam etdirilmiş, bruselyoz xəstəliyinə görə 12 min 640 qan, 231 patoloji, 5 adda 8723 parazitar nümunə, eləcə də Baytar Sanitar Ekspertiza laboratoriyalarında 1277 nümunə müayinələrdən keçirilmişdir.

Ötən ay peyvənd işi də vaxtında təşkil olunmuş, profilaktika məqsədilə 4256 baş iribuynuzluda qarayara, 9079 baş iribuynuzluda nodulyar dermatit, 71 min 409 baş iribuynuzluda dabaq xəstəliyinə, 240 min 849 baş ev quşlarında taun xəstəliyinə qarşı peyvəndləmə aparılmışdır. Həmçinin aprel ayında 3440 baş inək və düyələrdə süni mayalanma aparılmış, ötən ildən mayalanmış inəklərdən 3767 baş cins buzov doğulmuşdur. Ay ərzində 14 vətəndaşın 286 arı ailəsi qeydiyyata alınmış və baytarlıq-sanitar pasportu (şəhadətnamə) verilmiş, 32 min 325 arı ailəsindən nümunələr götürülərək laboratoriyalarda müayinə olunmuşdur. Baytarlıq nəzarətində olan bütün obyektlərdə 45 reyd keçirilmiş, mal-qaraya qulluq, yemləmə, xəstəliklərdən qorunma və aparılan baytarlıq tədbirlərinin əhəmiyyəti haqqında sahibkarlara tövsiyələr verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti***

## Boks turnirinə yekun vurulub



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş boks üzrə "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublika turniri keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdikləri turnirin məqsədi ümummilli lider Heydər Əliyevin xatirəsini yad etmək, həmçinin muxtar respublikada boks idman növünün inkişafına və kütləviliyinə nail olmaqdan ibarətdir.

Turnirin açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının ifasında bir-birindən rəngarəng musiqi nümunələri nümayiş etdirilib.

Sonra yarışa start verilib.

Turnirdə 100-ə yaxın dəri əlcək sahibi mübarizə aparıb və son gündə finalçılar rinqə çıxıblar.



Final görüşlərində tamaşaçılar 12 çəki dərəcəsində maraqlı döyüşlərə şahidlik ediblər. Şəhər və rayon komandalarının mübarizə apardığı turnirin həlledici qarşılaşmasına daha çox "Naxçıvan" komandasının boksçuları yüksəliblər. Belə ki, finalda döyüşmək hüququ qazanan bu komandanın 13 idmançısından Nazim Abazərli (44 kiloqram), Nizami Novruzov (50 kiloqram), Ülvi Süleymanov (54 kiloqram), Ayxan Süleymanov (57 kiloqram), Kamran Allahverdiyev (60 kiloqram), Sahil Qafarov (64 kiloqram) və Sərvər Abdullayev (75 kiloqram) bütün rəqiblərini üstələyərək turnirin qalibi olublar. Digər həlledici qarşılaşmalarda isə Alışan İsmayılov (42 kiloqram, Şərur), Mustafa Bəşirov (48 kiloqram, Şərur), Kənan Şəfiyev (52 kiloqram, Şərur), Ülvi İbrahimov (69 kiloqram, Ordubad) və Ayxan İsayev (+85 kiloqram, Kəngərli) rəqiblərinə qalib gələrək turnirdə birinci yerə layiq görülüblər.

Komanda hesabında isə əldə etdikləri qələbə sayına görə "Naxçıvan" komandası birinci yerə layiq görülüb.

Sonda qaliblərə diplom və hədiyyələr təqdim olunub.

Mükafatları Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbov, Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov təqdim ediblər.

## Festival iştirakçıları qədim diyarın tarixi abidələri və mədəniyyət müəssisələri ilə tanış olublar

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalının iştirakçılarının Naxçıvan şəhərindəki tarixi abidələrə və mədəniyyət müəssisələrinə gəzintiləri təşkil olunub.*

Mayın 2-dən başlayaraq festival iştirakçıları Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayı, Rəsm Qalereyası, Dövlət Bayrağı Meydanı və Muzeyi, Naxçıvan Dövlət Tarix, Bəhruz Kəngərli muzeyləri, Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksi, həmçinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olublar. Onlara tarix və mədəniyyət abidələrimiz haqqında ətraflı məlumat verilib.



"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində azyaşlı festival iştirakçıları və onların valideynləri ilə həmsöhbət olduq.

8 yaşlı şahmatçı Ömər Qədirli bu festivalda ilk dəfə iştirak etdiyini bildirdi. "İştirak etdiyim hər üç oyunda qələbə qazanmışam. Ümidvaram ki, festivalda yüksək nəticə əldə edəcəyəm", – deyən Ömər Qədirli qarşıdakı illərdə də təşkil olunacaq yarışlarda iştirak etmək arzusunda olduğunu vurğuladı.

Dövlət Bayrağı Meydanı və Muzeyi ilə tanışlığı barədə də danışan balaca şahmatçı burada Azərbaycanın qədim dövlətçilik tarixini əks etdirən çoxsaylı tarixi nümunələrə maraqla baxdığını dedi.

Digər iştirakçı, 9 yaşlı Rasim Ağayev bu festivalda üçüncü dəfə iştirak etdiyini dedi. Ötən il təşkil olunan festivalda öz yaş qrupunda üçüncü yerə layiq görüldüyünü deyən Rasim bu il də uğurlu nəticə əldə etmək uğrunda mübarizə apardığını vurğuladı.

Valideyn Fərid Qədirov bizimlə söhbətində bildirdi ki, festivalda təşkilatçılıq yüksək səviyyədədir. Naxçıvanda olduğumuz bir neçə gün ərzində buradakı tarix və mədəniyyət abidələrinə gəzintilər təşkil olunub. Festival iştirakçılarının qədim diyarın tarixi abidələri ilə yaxından tanış olması onların həm də dünyagörüşünün artmasına imkan verəcəkdir.

Qeyd edək ki, qarşıdakı günlərdə festival iştirakçılarının Naxçıvan Dövlət Xalça Muzeyi, Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan Duz Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə gəzintiləri də nəzərdə tutulub.

**Tural AĞAYEV**

## Karate-do üzrə turnirə start verilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının təşkil etdiyi karate üzrə "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublikası açıq turnirinə start verilib.



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə 300-ə yaxın idmançı iştirak edir. Turnirdə muxtar respublikanın şəhər və rayonlarının 8 komandası ilə yanaşı, Bakı şəhərinin 5 komandası da mübarizə aparır. İdmançılar 47 çəki dərəcəsi və müəyyən edilmiş yaş qruplarında tatami üzərinə çıxacaqlar.

Bu gün turnirin final görüşləri keçiriləcək.

## Beynəlxalq Şahmat Festivalında 4-cü tur başa çatıb

***Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalında 4-cü tura yekun vurulub.***



"A" qrupunun liderləri bu turda da üz-üzə gəliblər. Belə ki, azərbaycanlı qrossmeysterlər Eltac Səfərli (2657), Nicat Məmmədov (2602) və Fərid Abbasov (2531) 4-cü turda müvafiq olaraq ukraynalı qrossmeyster Vitaliy Bernadskiy (2589), almaniyalı qrossmeyster İqor Xenkin (2557) və israilli qrossmeyster İlia Smirinlə (2592) qarşılaşıblar. Hər üç görüş heç-heçə başa çatıb. Qazaxıstanlı beynəlxalq usta Pak Yevgeni (2390) isə bu turda belaruslu qrossmeyster Aleksey Aleksandrovu (2594) məğlub edib. Azərbaycanlı qrossmeysterlərdən Qədir Hüseynov da (2654) beynəlxalq usta Vüqar Əsədlidən (2470) üstün olub. Turnirin ən reytinqli şahmatçısı, ukraynalı qrossmeyster Anton Korobov bu turda da heç-heçə edib. O, bu dəfə gürcüstanlı beynəlxalq usta İrakli Beradze (2486) ilə xalları yarı bölüb.

Naxçıvanlı zəka sahiblərindən Urfan Sevdimalıyev (2397) iranlı qrossmeyster Mitra Hejazipurla (2283) xalları yarı bölüb. FİDE ustalarımız Pərviz Qasımov (2329) və Sadiq Məmmədov (2293) müvafiq olaraq azərbaycanlı beynəlxalq ustalar Nail Bəşirli (2374) və Məhəmməd Muradlı (2417) ilə görüşüblər. Hər iki şahmatçımız ağ-qara taxtanı məğlub tərk ediblər. Beynəlxalq usta Toğrul Həsənzadə (2350) isə İran şahmatçısı Purmosavi Seyid Kiani (2230) üzərində qələbə qazanıb.

Hazırda turnir cədvəlinə 3,5 xalla qazaxıstanlı beynəlxalq usta Pak Yevgeni başçılıq edir. Onu 3 xalla 10 zəka sahibi izləyir.

Beynəlxalq Şahmat Festivalının "B" qrupunda 48 görüş keçirilib ki, onların da 20-də ağ fiqurlarla mübarizə aparan zəka sahibləri qalib gəliblər. 19 görüşdə qara fiqurlarla oynayan şahmatçılar qələbə qazandığı halda, 9 görüş "sülh"lə başa çatıb. Hazırda bu qrupda 3 şahmatçı – Samir Davidov (2216, Xaçmaz), Təbriz İdrisov (2206, Bakı) və Şahin Hüseynov (2182, Bakı) 4 xalla turnir cədvəlinə başçılıq edirlər.

"C" qrupunun liderlərindən olan naxçıvanlı şahmatçılardan İlkin Qabulov (1328) və Sadiq Abbasov (1312) bu turda rəqibləri ilə "sülh" bağlayıblar. Ümumiyyətlə, 4 turdan sonra hazırda turnir cədvəlinə 4 zəka sahibi maksimum xalla başçılıq edir.

**Ceyhun MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin aprel ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2721 | 202,5 | 202,5 | 100,0 |
| 2. | Şərur rayonu | 2201 | 156,3 | 156,3 | 100,0 |
| 3. | Babək rayonu | 1761 | 125,0 | 125,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1116 | 78,6 | 78,6 | 100,0 |
| 5. | Culfa rayonu | 839 | 59,6 | 59,6 | 100,0 |
| 6. | Kəngərli rayonu | 865 | 61,0 | 61,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 409 | 28,8 | 28,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 255 | 17,9 | 17,9 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 27668 | 2490,1 | 2419,3 | 97,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **37835** | **3219,8** | **3149,0** | **97,8** |

**Qeyd:** Aprel ayında texniki itki nəzərə alınmaqla daxil olan 37 milyon 835 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 219 min 800 manat olmuş, cəmi 3 milyon 149 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 97,8 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin aprel ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 728753 | 76122 | 76749 | 100,8 |
| 2. | Kəngərli rayonu | 473435 | 48392 | 48587 | 100,4 |
| 3. | Şahbuz rayonu | 509875 | 54252 | 54376 | 100,2 |
| 4. | Culfa rayonu | 627498 | 64284 | 64394 | 100,2 |
| 5. | Sədərək rayonu | 127362 | 13481 | 13493 | 100,1 |
| 6. | Şərur rayonu | 1186969 | 123052 | 123147 | 100,1 |
| 7. | Babək rayonu | 1340965 | 140490 | 140549 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 1522334 | 168916 | 168956 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 9893426 | 1670976 | 1619216 | 96,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16410617** | **2359965** | **2309467** | **97,9** |

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 335